2018-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 14723 min ton yük, 95599 min sərnişin daşınmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,7 faiz, sərnişin daşınması 2,1 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 52 milyon 652 min manat gəlir əldə edilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,3 faiz, sərnişin daşınması 3,1 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 2 faiz artmışdır.